**Qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirinə dair məlumat**

**( 08 oktyabr 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin Şəki-Zaqatala regional bölməsinin fitosanitar müfəttişləri tərəfindən Qəhvəyi mərmər bağacığına qarşı payız-qış dövründə həyata keçiriləcək mübarizə tədbirləri ilə bağlı Balakən Rayon İcra Hakimiyyətində geniş maarifləndirici görüş keçirilib.

Görüşdə rayon rəhbərliyi, kənd icra nümayəndələri və bələdiyyə sədrləri iştirak ediblər. Qəhvəyi mərmər bağacığının yayılma xüsusiyyətləri, təsərrüfata vurduğu zərər və ona qarşı mübarizənin effektiv üsulları barədə geniş məlumat verilib. Qeyd olunub ki, zərərverici ilə mübarizədə vətəndaşların, yerli sakinlərin fəal iştirakı mühüm əhəmiyyət daşıyır. Vurğulanıb ki, sakinlər payız-qış mövsümündə bağacığın qışlama yerlərini aşkar edib fərdlərini toplayaraq məhv etdikdə, onun populyasiyası növbəti mövsümdə əhəmiyyətli dərəcədə azalda bilər.

Görüşün sonunda iştirakçılara maarifləndirici bukletlər, kitabçalar və broşürlər paylanılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Bundan başqa Agentliyin regional bölməsinin əməkdaşları Zaqatala və Balakəndə fərdi evlərə baş çəkib, yerli əhali ilə maarifləndirici görüşlər keçirir. Görüşlərdə ev şəraitində zərərvericiyə qarşı mümkün mübarizə tədbirləri barədə məlumatlar çatdırılır.